# İNGİLİS DİLİ ÜZRƏ SƏVİYYƏ İMTAHANI (İDSİ)

## İMTAHANIN XÜLASƏSİ

ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanı (İDSİ) ADA Universitetinin bakalavr pilləsinə daxil olmaq istəyən abituriyentlərin ingilis dili səviyyəsini müəyyən etmək üçün tərtib olunmuş bir testdir. İmtahanın keçirilməsi iki məqsəd daşıyır: 1) tələbənin bakalavr pilləsində seçdiyi ixtisas üzrə ingilis dilində təhsil alması üçün vacib olan dil bacarıqlarına malik olub-olmadığını müəyyən etmək; 2) tələbəni dil səviyyəsinə uyğun olraraq Akademik və Peşəkar Məqsədlər üçün İngilis dili (APMİ) proqramının müvafiq qrupunda yerləşdirmək.

## İMTAHANIN TƏSVİRİ

İDSİ dörd bölmədən ibarətdir: praktik ingilis dili, oxuyub- anlama, dinləmə və yazı.

I. **Praktik İngilis Dili** bölməsi tələbənin ingilis dilinin qrammatikası və söz ehtiyatı biliklərini, o cümlədən, dil strukturları və zamanlardan düzgün istifadə bacarıqlarını qiymətləndirir.

II. **Oxuyub-anlama** bölməsinə akademik materiallar, kitablar, qəzet və jurnal məqalələrindən götürülmüş bir və daha çox abzasdan ibarət mətnlər üzərində iş daxildir. Tələbələr bu mətnləri oxuyaraq ideyaların məntiqi əlaqələndirilməsi, əsas və inkişafetdirici ideyaların müəyyən edilməsi, mətnin başlıca məqsədinin aşkar olunması və söz ehtiyatı ilə bağlı müxtəlif suallara cavab verirlər.

III. **Dinləmə** bölməsi üzrə imtahan iki hissədən ibarətdir: 1) dinləyib-anlama; 2) dinləyib-qeyd götürmə.

1) Dinləyib-anlama hissəsinə cümlələr, dialoqlar, qısa söhbətlər, müsahibə və mühazirələr, həmçinin onlara aid suallar daxildir. Burada tələbələrdən funksional və idiomatik ifadələrin daşıdığı mənanı tapmaq, əsas və xüsusi məlumatı, mətnaltı mənaları və mətnlərin hansı prinsiplər üzərində qurulduğunu müəyyənləşdirmək tələb olunur.

2) Dinləyib-qeyd götürmə hissəsinə mühazirə üzrə 4-6 sualın cavablandırılması daxildir.

IV. **Yazı** bölməsi iki tapşırıqdan ibarətdir: 1) akademik mətn, qəzet və ya jurnal məqaləsinə rəy bildirilməsi; 2) birinci tapşırıqda müzakirə olunan mətnin mövzusu ilə bağlı yazı işi.

ADA Universitetinə qəbul olmuş hər bir tələbədən İngilis dili üzrə Səviyyə İmtahanında iştirak etmək tələb olunur. Tələbə yalnız aşağıda geyd olunmuş imtahanlardan birinin nəticəsini təqdim etdiyi halda ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanından azad oluna bilər.

- **TOEFL -75 iBT (537) və çox**
- **IELTS – 6.0 və çox**

## İMTAHANIN FORMATI

ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanı iki mərhələdən ibarət olmaqla iki gün davam edir. İmtahanın hər iki mərhələsi bərabər şəkildə qiymətləndirilir və hər biri ümumi 100 balın 50 balını təmin edir.

<table>
<tr><td rowspan="3">Birinci gün</td><td rowspan="3">I MƏRHƏLƏ</td><td rowspan="2">I hissə: Praktik ingilis dili</td><td>Sualların sayı</td><td>Təqribi vaxt</td></tr>
<tr><td>40 sual<br>Hər birinə 0,5 bal<br>(ümumi 20 bal)</td><td>30 dəqiqə</td></tr>
<tr><td>II hissə: Oxuyub- anlama</td><td>30 sual<br>Hər birinə 1 bal<br>(ümumi 30 bal)</td><td>60 dəqiqə</td></tr>
<tr><td colspan="5">Qeyd: Səviyyə İmtahanının birinci mərhələsində <u>25 baldan aşağı</u> nəticə əldə etmiş tələbələr imtahanın ikinci mərhələsində iştirak etmirlər. Onlar Səviyyə İmtahanının birinci mərhələsində topladıqları bala müvafiq olaraq APMİ proqramında yerləşdirilirlər.</td></tr>
<tr><td rowspan="5">İkinci gün</td><td rowspan="5">II MƏRHƏLƏ</td><td>I hissə: Dinləyib- anlama</td><td>40 sual<br>Hər birinə 0.5 bal<br>20 bal</td><td>70 dəqiqə<br>(cavab kartlarının doldurulması daxil olmaqla)</td></tr>
<tr><td colspan="3">15 dəqiqəlik fasilə</td></tr>
<tr><td>II hissə: Dinləyib-qeyd götürmə</td><td>4-6 sual<br>10 bal</td><td>25 dəqiqə</td></tr>
<tr><td colspan="3">35 dəqiqəlik fasilə</td></tr>
<tr><td>III hissə: Yazı</td><td>2 sual<br>20 bal</td><td>60 dəqiqə</td></tr>
</table>

ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanından toplanılan yekun ballar və səviyyələr II mərhələ bitdikdən 2 iş günü sonra elan olunur.

***Qeyd:** İmtahanın yekun nəticəsi 60 baldan yüksək olduğu halda, tələbələr APMİ proqramından azad edilirlər və ADA Universitetinin Bakalavr pilləsində əsas akademik tədris proqramına qoşulurlar.

**VACİB TARİXLƏR**:

| | |
|---|---|
| **26 Avqust**<br>9:30 | İDSİ-nın I mərhələsi (tələbələr imtahandan **1 saat əvvəl** ADA Universitetinin binası qarşısında olmalıdırlar) |
| **26 Avqust**<br><br>18:00 | İDSİ-nın II mərhələsində iştirak edəcək tələbələrin siyahısının elan edilməsi * |
| **27 Avqust**<br><br>9:00 | İDSİ-nın II mərhələsinin Dinləmə hissəsi (tələbələr **imtahandan 1 saat əvvəl** ADA Universitetinin binası qarşısında olmalıdırlar) |
| **27 Avqust**<br>11:30 | İDSİ-nın II mərhələsinin Yazı hissəsi |
| **29 Avqust**<br>11:00 | İmtahan nəticələrinin elan edilməsi |

* **Qeyd:** I mərhələnin nəticələri ilə bağlı məlumat tələbələrə imtahan günü saat 18:00–dan sonra ADA Universitetinin rəsmi internet saytinda *(www.ada.edu.az/qeydiyyat)* yerləşdirilən, həmçinin universitetin Qeydiyyat söbəsinə təqdim olunan siyahı vasitəsilə çatdırılır.

**İMTAHAN QAYDALARI:**

1. İmtahan verənlər özləri ilə şəxsiyyət vəsiqəsi, tələbə kartını gətirməli və imtahan başlamazdan **bir saat əvvəl** ADA Universitetinin binası qarşısında olmalıdırlar.

2. İmtahana 20 dəqiqədən artıq gecikən tələbələr imtahana buraxılmayacaqlar.

3. II mərhələnin DİNLƏYİB- ANLAMA (formatı yuxarıda qeyd olunub) hissəsi başladıqdan sonra, imtahan otağına heç bir tələbə buraxılmayacaqdır. İmtahana 20 dəqiqədən az gecikmiş tələbələrə yalnız DİNLƏYİB-ANLAMA hissəsi başa çatdıqdan sonra DİNLƏYİB-QEYD GÖTÜRMƏ hissəsində iştirak etmək imkanı veriləcəkdir.

**Qeyd:** *Abituriyent imtahanın dinləyib-anlama hissəsini ötürdüyü halda, bu bölmə sıfır bal ilə qiymətləndiriləcəkdir.*

4. İmtahan verənlərdən özləri ilə yazı qələmi gətirmələri tələb olunur.

5. Sağlamlıqla bağlı ciddi problemin yarandığı hallar istisna olmaqla, imtahan verənlərə imtahan otağını tərk etmək icazəsi verilməyəcəkdir. Ona görə də tələbələrdən xahiş olunur ki, özləri ilə su gətirsinlər.

6. İmtahan verənlər imtahan və ya imtahan arası fasilə vaxtı aşağıda göstərilən əşyalardan istifadə edə bilməzlər:

   a. istənilən növ çanta (əl çantası, bel çantası və s.)

   b. elektron cihazlar (nə imtahan nə də fasilə vaxtı): smart qol saatı, radio, telefon və mobil telefon, tərcümə avadanlıqları, saniyə ölçənlər (sekundamer), saat zəngləri, fərdi məlumat köməkçiləri (PDA) və hər hansı digər elektron və ya foto cihazlar daxildir.
   c. imtahan köməkçiləri: buraya kitablar, broşurlar, qeydlər, hər cür lüğətlər və istənilən digər potensial köməkçilər daxildir.

7. Sinifdaxili fasilə zamanı yalnız çox vacib olduğu hallarda tələbələrə nəzarətçinin müşayiəti altında otağı tərk etmək icazəsi verilə bilər.

**Qeyd:** *Yuxarıdakı qaydaların hər hansı bir bəndini pozan abituriyentin imtahan nəticələri dərhal ləğv ediləcəkdir.*

8. İmtahan nəzarətli olacaq. İmtahan verənlər imtahan zamanı nəzarətçilərin bütün təlimatlarına əməl etməlidirlər. Bir şifahi xəbərdarlıqdan sonra nəzarətçi imtahan verəndən otağı tərk etməsini tələb etmək hüququna malikdir və həmin tələbənin imtahan nəticələri ləğv olunacaqdır.

9. İmtahanı başqasının adından vermək istəyən və ya köçürməyə cəhd edən tələbəyə qarşı ciddi ölçü görüləcək və bu cür namizədlərin imtahan nəticələri etibarsız sayılacaqdır.

10. Hər hansı bir səbəbdən imtahanda iştirak edə bilməyən abituriyentlərin sonradan imtahan vermək şansı olmayacaqdır.